# Ulu öndər daim qəlblərdə yaşayacaq

***Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan tədbir keçirilib. ATMU-nun rektoru İlham Mədətov ulu öndərin elm, təhsil, mədəniyyət sahələrinin dinamik inkişafındakı əvəzolunmaz rolundan, müasir Azərbaycanın qurucusu Heydər Əliyev tərəfindən 1993 – 2003-cü illərdə əsası qoyulan genişmiqyaslı islahatların ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyindən bəhs edib.***




Rektor bu gün gücü, qüdrəti və beynəlxalq nüfuzu getdikcə artan Azərbaycanın vaxtilə Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi kursuna Prezident İlham Əliyevin sadiqliyi faktına aydınlıq gətirib. O, qəlbi daim vətən eşqi ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan, istiqlal yolumuzu və istiqbalımızı nurlandıran, millətini zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, çətin vəziyyətdə ən düzgün çıxış yolu tapan müdrik rəhbər Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən danışıb.

Ümummilli lider Heydər Əliyevin xalqı və dövləti üçün gördüyü işlərdən, ölkəmizin beynəlxalq aləmdə söz sahibinə çevrilməsindəki xidmətlərindən söz açan “Heydər Əliyev” lektoriyasının rəhbəri, ictimai fənlər kafedrasının professoru, tarix elmləri doktoru Məhərrəm Zülfüqarlı müasir, müstəqil Azərbaycanı ulu öndərin şah əsəri adlandırıb. Fenomen şəxsiyyətin mükəmməl idarəetmə bacarığına malik olduğunu, xalqın və dövlətin problemlərinə həssaslıqla yanaşdığını bildirib. Elm və inkişaf məsələləri üzrə prorektor, pedaqoji elmlər doktoru, professor İranə Əliyeva Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan “Xalq öz dili ilə yaranır” adlı yeni kitabını təqdim edib. Rus və ingilis dillərində çap olunan kitabda Heydər Əliyevin dəyərli ifadələri yer alıb. “Xalq öz dili ilə yaranır” kitabının elmi redaktoru, universitetin dillər kafedrasının dosenti, filologiya elmləri namizədi Ağaverdi Xəlilov Azərbaycan xalqının dövlətçilik şüurunun, bütöv bir idarəçilik məktəbinin, eyni zamanda müasir ictimai-siyasi fikrin ulu öndərin siyasi obrazında böyük inkasını diqqətə çatdırıb. Biznes idarəçiliyi fakültəsinin dekanı, iqtisadiyyat üzrə fəlsəfə doktoru, dosent Vüqar Nəzərov müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin mənalı həyatından və çoxşaxəli fəaliyyətindən bəhs edib. Ümummilli liderin qəlblərdə və hafizələrdə daim yaşayacağını deyib.

Tədbir iştirakçılarının çıxışlarının əsas qayəsi bu olub ki, neçə ki, Azərbaycan xalqı yaşayır, o qədər də ulu öndər hər bir vətəndaşımızın qəlbində əbədi yaşayacaq.

***Z.BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***